# Şuşada dini-mədəni abidələrə yeni ruh verilir

## Mədəniyyət paytaxtına doğma sakinlərinin qayıdışı xalqımızı sevindirir

**"10 may Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümündə tariximizdə yenidən unudulmaz səhifə açıldı. Həmin tarixdə 20 şuşalı ailəsi 32 ildən sonra öz doğma yurduna qayıtdı".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Şuşanın ermənilər tərəfindən işğal olunmasının o dövrdəki hakimiyyətin xainliyinin və səriştəsizliyinin göstəricisi olduğunu deyən deputat bildirib ki, bu şəhərin işğaldan azad olunması Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğuru və təntənəsidir. Məhz Prezident İlham Əliyev dahi liderin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirərək Azərbaycanı qələbəyə gətirdi. Dörd ilə yaxın müddətdə ermənilərin yerlə yeksan edərək dağıtdıqları Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yenidən qurularaq müasirləşdirilir. Bu ərazilər dünyanın ən gözəl məkanlarına çevrilir.



Şuşanın yenidən qurulduğunu və doğma sakinlərinin geri qayıtdığını diqqətə çatdıran A.Badamov xatırladıb ki, Prezident İlham Əliyev qala-şəhərdə yeni yaşayış massivlərinin bünövrələrini qoydu. "Şuşada eyni zamanda dini-mədəni abidələrə yeni ruh verilir. Əslində, bu abidələr işğal altında olduğu dövrdə də xalqımızın ruhunu itirmədilər. Amma bu gün onlar yenidən qurulur və özünün əsl simasına qaytarılır. Şuşada musiqi sədaları eşidilir. Şuşa 2021-ci ildə Azərbaycanın, 2023-cü ildə Türk dünyasının, 2024-cü ildə isə bütün İslam dünyasının mədəniyyət paytaxtı oldu. Bundan sonra da Şuşa beynəlxalq tədbirlər, poeziya gecələri və "Xarıbülbül" festivallarına qürurla evsahibliyi edəcək. Şuşanın hər bir daşına musiqi notları, mədəniyyət inciləri həkk olunub. Şuşa azad olunduqdan sonra həmin notların və incilərin sədaları yenidən dünyaya yayılır. Heydər Əliyev Fondunun prezidenti, Birinci viste-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Şuşada mədəni, dini ruh yenidən canlanır", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Şuşa həm də xalqımızın qürur mənbəyidir. Odur ki, qəhrəman Azərbaycan hərbçiləri Ali Baş Komandanın tapşırığını öz canından üstün tutaraq yüngül silahlarla sərt qayalara dırmaşaraq ağır hərbi texnikalarla silahlanmış düşməni tərksilah etdi. Təbii ki, bu, cəsur oğullarımızın yazdığı qəhrəmanlıq salnaməsi idi. Bu salnamə bütün dünyaya səs saldı və hərbçilərimizin qalibiyyət simvolunu yaratdı. Bu simvol xalqımızın qürur mənbəyinə çevrildi.

Müsahibimiz qeyd edib ki, uzun illər məcburi köçkün həyatı yaşamış vətəndaşlarımız öz doğma yurdlarına qayıdır, müasir şəhər və kəndlərdə öz firavan həyatlarını davam etdirirlər: "Hər bir keçmiş məcburi köçkünün doğma yurduna qayıdışı xalqımızı daha da xoşbəxt edir. Torpaqlarımız işğal altında olduğu illərdə hər bir vətəndaşımız qaçqın və məcburi köçkünlərin yaşadığı həyatın acısını, torpaqlarımızın erməni tapdağı altında olmasının ağrısını çəkmişdi. Ona görə də 44 günlük Vətən müharibəsində hamı bir amal və arzu ətrafında birləşərək düşmən üzərində qələbəni təmin etdi".

Deputat təəssüflə bildirib ki, uzun illər ATƏT-in Minsk qrupunun sədrləri kimi mandata sahib olub torpaqlarımızda erməni işğalını əbədiləşdirməyə çalışanlar uğurlarımızı həzm edə bilmir və müxtəlif yollarla öz düşmənçiliklərini davam etdirirlər. Fransa Ermənistanı açıq şəkildə silahlandırır. Bütün bunlar gözümüzün önündə baş verə-verə susub dayana bilmərik. Prezident İlham Əliyev şuşalılarla görüşdə bizə düşmən kəsilərək erməniləri yenidən revanşizmə sövq edənlərə çox ciddi mesajlar verdi. Dövlət başçısı, həmçinin onlara səslənərək, Ermənistana verilən silahların bizim üçün təhlükə səviyyəsinə gəldiyi halda heç nəyə baxmadan mütləq şəkildə tədbirlərin görüləcəyini bildirdi.

A.Badamov hesab edir ki, dövlətimizin başçısının mesajları bəzilərinin ünvanlarına çatıb və onlar regionumuza baxışlarında dəyişiklik etməlidirlər: "Çünki regionun əsas söz sahibi və güc mərkəzi Azərbaycandır. Azərbaycan öz gücünü döyüş meydanında sübut edib. Lazım gələrsə, yenidən bu gücü göstərə bilərik. Müharibənin başa çatmasından keçən hər gün ordumuz daha da güclənir, peşəkarlaşır və müasir silahlarla təchiz olunur. Ona görə də Ermənistanda revanşizmdən danışanlar Prezident İlham Əliyevin mesajlarından nəticə çıxartmalıdırlar. Əgər vaxt qazanıb yenidən revanşizmə getmək istəyirlərsə, bu, onlar üçün çox ağır nəticələnəcək".

Deputat vurğulayıb ki, Azərbaycan bu gün müharibəyə yox, sülhə və əməkdaşlığa "hə" deyir. Ermənistan da bu fürsət pəncərəsindən istifadə etməli və regionda sülhün bərpası təşəbbüslərini qısa zamanda dəstəkləməlidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.7.